**UOT 791-5**

**Gülşən Əliəkbər qızı Qafarova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**e-mail: abduhallah@gmail. com**

# ƏN GÖZƏL GÜNLƏR

**Xülasə**: Məqalə Drek Sanın 2019-cu ildə çəkdiyi, bullinq probleminə diqqət çəkən "Ən gözəl günlər" (Shao nian de ni) filmi haqqında düşüncələrdir. Zorakılığın hər növü və forması qınaq obyektinə çevrilməlidir, lakin uşaqların zorakılığı daha qorxuncdur. Çünki yeniyetmələr əməllərinin fəsadlarını anlamaqda çətinlik çəkir, başqalarına yaşatdıqları bullinqi dərk etmirlər.

**Açar sözlər:** bullinq, zorakılıq, yeniyetmə, dram.

"Ən gözəl günlər" filminin qəhrəmanları orta məktəb şagirdləri olsa da mövzusu yetişkin insanlar üçün də maraqlı və düşündürücüdür. Biz ya özümüz, ya da tanıdığımız birinin bu və ya digər mənada (kiber, sosial, psixoloji, fiziki, sözlü) zorakılığına məruz qaldığına şahid olmuşuq. Yeniyetmələr arasında zorakılıq daha qorxuncdur, çünki daha böyük faciəvi fəsadlara yol açır. Əlbəttə ki, zorakılıq yaşından asılı olmayaraq dəhşətlidir. Amma yeniyetmələrin acımasızlığı, başqaları ilə empatiya qura bilməmələri, əməllərinin fəsadlarını anlamamaları mərhəmət hisslərinin korşalmasına səbəb olur.

"Ən gözəl günlər" filminin əsas məqsədi bullinqə diqqət çəkmək olsa da, hekayəsinin real faktlara əsaslanması faciənin böyüklüyünü gözlər önünə sərir. Film, başlamadan öncə elə "soyuq jenerik"də qoyulan problemə diqqət çəkir, tamaşaçını danışacağı hekayədən nəticə çıxarmağa səsləyir. Final səhnəsindən sonra titrlər filmin hekayəsini sonlandırsa da, titrlərdən sonra kadrarxası mətn hekayənin davamının olduğunu göstərir. Bu yanaşma tamaşaçıda izlədiyinin sadəcə "bir film" deyil, həyatın bir parçası, həm də acımasız bir parçası olduğu reallığına qay- tararaq düşünməyə vadar edir. Katarsis yaşayan tamaşaçı öz əməllərini hesaba çə- kir, özünün nə zamansa başqalarına qarşı bu və ya digər bir şəkildə zorakılıq edib, etmədiyini araşdırır.

"Ən gözəl günlər" filminin mövzusu bütün gücü ilə qəbul imtahanlarına hazırlaşan sonuncu sinif şagirdlərinin, bu "mübarizələrində" hər şeyi mübah görmələri, gələcək həyatlarının "qurtuluşu" naminə təcavüzdən, zorakılıqdan çəkinməmələri üzərində qurulub. Bu "qurtuluş" planı valideynlərin, məktəb müəllimlərinin, dolayısı ilə cəmiyyətin şagirdlərin beyninə yeritdiyi tək çarədir. Cəmiyyət əslində insanlığa faydası olacaq şəxsiyyətlər deyil, məmurlar yetişdirmək uğrunda

mübarizə aparır. Rəqabət şagirdlərin akademik nailiyyətləri üzərində qurulduğu üçün hissdən, empatiyadan, mərhəmətdən yoxsul "robotlaşmış" insanlar yetişir.

Filmin baş qəhrəmanı sonuncu sinif şagirdi Çen Nian da digər sinif yoldaşları kimi ciddi-cəhdlə qəbul imtahanına hazırlaşdığı üçün ətrafda baş verənlərə qarşı laqeyd münasibət bəsləyir. Məktəbdə heç kim, heç kimin dostu deyil, çünki hər biri digərinin rəqibidir. Bu rəqabət hissi normal insani münasibətlər qurmağa mane olur və zorakılığı "adiləşdirir". Bullinqə məruz qalan, zorakılıqla qarşılaş- dıqdan sonra başqalarının nə "çəkdiyini" anlayır və bu zorakılıqla bacardığı qədər mübarizə aparmağa çalışır.

Sinif yoldaşının intiharından sonra bullinqin obyektinə çevrilən Çen Nianın həyat yolu onunla demək olar ki, eyni aqibəti yaşayan Lyu Bey Şanla kəsişir. Çen Nianın anası pul qazanmaq üçün yetişkin qızını problemləri ilə baş-başa buraxaraq davamlı səyahət edir. Lyu Bey isə anasının harada olduğunu bilmir. Yaşamaq üçün hər biri öz "silahı" ilə mübarizə aparır. Çen Nian yaxşı oxuyub universiteti qazanıb, Pekinə köçməli və özü ilə yanaşı anasının da gələcəyini xilas etməlidir. Lyu Bey isə xırda xuliqanlıqla başını girləyib həyatda qalmağa çalışmalıdır. Hər iki qəhrəmanımız bu amansız həyatla mübarizə aparmağa məcbur qalsalar da, içlərindəki mərhəmət hissi ölmədiyi üçün başqalarına faydalı olmağa çalışırlar. "Dünyanı qorumaq" istəyən Çen Nianı qoruyan Lyu Bey arasında yaşananlar zamanla isti münasibətlərə çevrilir.

Filmin süjet xətti tamaşaçını Çinin marjinal həyatının uçurum və ziddiyyətlərinə şahid tutur, zorakılığın necə dəhşətli bir hadisə olduğuna diqqət çəkir. Filmə baxan tamaşaçı bunun gerçəkdən ola biləcəyinə inanmasa da, titrlərdən sonrakı mesaj tamaşaçını reallıqla üz-üzə qoyur.

Ssenarist və rejissorların yeniyetmələr arasında zorakılıq mövzusuna diqqət çəkmələri cəmiyyətin gələcəyi üçün narahatlıqlarından qaynaqlanır. 2000-ci ildə Yapon rejissoru Kindzi Fukasakunun "Kral savaşı" (Battle Royale) filminin mövzusu da məktəblilər arasında zorakılığa həsr olunub. Hər iki filmi müqayisə etsək, "Ən gözəl günlər" filminin qəhrəmanı Çen Nian istəməsə belə "qatil" olur. "Kral savaşı" filminin baş qəhrəmanı Noriko Nakaqava isə bu "savaşda" məsum qalır. Birinci filmin real faktlara əsaslanması isə tamaşaçını faciənin dəhşəti haqqında düşünməyə vadar edir.

"Kral savaşı" filminin əsas süjeti iqtisadi böhran nəticəsində əhalisinin 15%-i işini itirmiş və buna görə "Kral oyunları" layihəsini həyata keçirməyə "məcbur olan" cəmiyyətin faciəsi üzərində qurulub. Layihəyə rəhbərlik edən bir məktəb müəllimi, layihənin iştirakçıları isə məktəblilərdir. Kimsəsiz adaya atılan, iradələrinin əleyhinə bir oyunun iştirakçılarına çevrilmiş məktəblilər 3 gün boyunca bir-birini öldürərək sağ qalmağa çalışmalıdırlar. Qaydalara görə qalib yalnız bir nəfər ola bilər. Oyunda iştirak etmək istəməyən, oyunun qaydalarını pozanlar anında cə-

zalandırılırlar. "Kral savaşı"nın qəhrəmanları sağ qalmaq üçün bir-birini öldürməyə "məcburdur". Ya kimisə öldürəcəksən, ya da qatil olmamaq üçün intihar edəcəksən. Oyunun qaydaları sənə üçüncü yolu göstərmir.

Rejissor Kindzi Fukasaku öz personajları ilə bir qədər "amansız rəftar edir", yeniyetmələrin lazım gəldiyində nə qədər amansız və qəddar ola biləcəklərini ən qanlı səhnələrlə nümayiş etdirir. Süjet xətti o qədər sürətlə inkişaf edir ki, tamaşaçı qanlı səhnələrdən "gözünü aça" bilmir və rejissorun insan xislətinin iki üzünü də paralel olaraq nümayiş etdirməsini "həzm" etməyə çalışır. Azğınlıq da, mərhə- mət də film boyu paralel inkişaf edir. Oyunun qaydaları aydındır – sağ qalmaq üçün mübarizə aparmaq və yeri gəldiyində başqalarını öldürmək.

Oyunun kuratoru olan müəllim Kitanoya isə qəlbinin dərinliklərində bu hormonal dəlilikdə əlini qana batırmayan, ləyaqətli birinin qalib gələcəyinə ümid edir. Noriko Nakaqava Kitanovanın ümid bəslədiyi o yeganə şagird idi.

Hər iki film tamaşaçını düşünməyə vadar edir: "mən belə bir zorakılıqla qarşılaşsam nə edərdim?" Çen Nian istəməsə belə "qatil" olur. Amma bu qətldən sonra hələ də universitet imtahanlarını düşünür, onun yerinə həbsə girməyə razı olan Lyu Beyin fədakarlığını qəbul edir. Lyu Bey sevdiyi qadını gələcək dünya üçün qorumağa çalışır. O, Çeni xilas etməli, Çen isə bu fədakarlığın müqabilində başqalarını xilas etməlidir. "Ən gözəl günlər" filminin gizli qəhrəmanı əslində Lyu Beydir, "Kral savaşı" filminin gizli qəhrəmanı isə Syu Nanxara. Hər ikisi fədakarlıq edərək başqalarını qorumağa çalışırlar. Belə fədakar personajlar isə tamaşaçını insanlığın gələcəyinə ümidlə baxmağa sövq edir.

**Ədəbiyyat siyahısı:**


1. https://wiki5. ru/wiki/Better_Days_(film)
2. «Королевская битва» sayt - Internet Movie Database
3. «Королевская битва»sayt - Rotten Tomatoes
4. https://www. filminquiry. com/better-days-2019-review-2/
5. https://variety. com/2019/film/reviews/better-days-review-shao-nian-de-ni-1203420441/

**Гюльшан Алиакпер кызы Гафарова ЛУЧШИЕ ДНИ**

**Резюме:** Статья представляет собой размышление о фильме Драк Сана 2019 года «Лучшие дни», в котором основное внимание уделяется проблеме буллинга. Каждый вид и форма насилия должны быть осуждены, но насилие над детьми еще более ужасно. Поскольку подростки с трудом понимают последствия своих действий, они не понимают того вреда, который они причиняют другим.

**Ключевые слова:** буллинг, насилие, подросток, драма.

**Gulshan Aliakbar qizi Gafarova BETTER DAYS**

**Summary:** The article is a reflection on Drak San's 2019 film "Better days", which focuses on the problem of bulling. Every type and form of violence should be condemned, but violence against children is even more terrible. Because teenagers have difficulty understanding the consequences of their actions, they do not understand the bullshit they inflict on others.

**Key words:** bullying, violence, teenager, drama.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 01.04.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: Əməkdar incəsənət xadimi, professor Əli Əmirli**